# Ölkədə doğum faizində azalma meyli var - demoqrafik çətinlikləri necə önləmək olar?

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

**Hər bir ölkənin müasir demoqrafik mənzərəsi onun gələcəyi barədə aydın təsəvvürlər yarada bilir. Əlbəttə, hər dövlətin əsas hədəflərindən biri demoqrafik vəziyyətin yüksəlməsidir ki, Azərbaycanda da bu arzulanan amildir. Bildiyimiz kimi, son illər ölkəmizdə ili-ildən doğum sayının azaldığı ilə bağlı informasiyalar, rəqəmlər yayılır.**



Statistik məlumatlardan da aydın görsənir ki, bizdə doğum faizi aşağı düşür. Bu da sözsüz ki, ölkəmizin gələcəkdə demoqrafik vəziyyətinin necə olacağı barədə suallar doğurur.

Bütün dünyada, eləcə də bizim cəmiyyətdə gender, ailə və demoqrafiya məsələri çox aktualdır, az qala hər gün müzakirə edilən məsələdir. Biz xüsusən də demoqrafik vəziyyətlə bağlı müəyyən qədər narahatlıq keçiririk. Son ayların rəsmi statistikasına görə , Azərbaycanda doğum faizi azalib. Bu faktor gələcəkdə ölkəmizin demoqrafik vəziyyətinə necə təsir edəcək? Bu istiqamətdə sosioloqlar, aidiyyəti qurumlar nə iş görür ki, gələcəkdə demoqrafik vəziyyətimiz pisləşməsin? Ümimiyyətlə, demoqrafik vəziyyətin səviyyəsi necədir? Doğum sayi niyə azalır? Demoqrafik çətinlikləri necə önləmək olar?

### "Bir uşaqlı ailə modeli cırtdan ailə modeli hesab olunur"

Jurnalist-sosioloq Lalə Mehralı "Bakı-Xəbər"ə bildirdi ki, əvvəllər nüxtəlif araşdırmalar apararkən aidiyyəti dövlət qurumlarından, sahə ekspertlərindən, eləcə də deputatlardan rahatladıcı statistikalar təqdim edilib, burada ölkənin demoqrafik vəziyyətinin normal, yaxşı olduğu vurğulanıb. "Həmişə deyiblər ki, Azərbaycanda demoqrafiya ilə bağlı təhlükə görsənmir, rəsmi statistika tamamilə normaldır, artım tempi qaydasındadır, doğum faizi az deyil və sair. Bizə bu rəyləri verirdilər. Bu yerdə insan dayanır və soruşur, bəs onda hazırkı vəziyyət nəyin nəticəsidir? İllər boyu "doğum kifayət qədərdir", "artılm kifayət qədərdir", "demoqrafik təhlükə gözlənilmir" deyirdilər, indi niyə vəziyyət bu cürdür? Əvvəlcə bu suala cavab versinlər. Biz həmişə bu barədə material işləyəndə ailələrin kiçilməsi ilə əlaqədar narahatçılığımızı bildirəndə, həyacan təbili çalanda bizi sərt şəkildə tənqid edirdilər ki, siz cəmiyyəti narahatçılığa sürükləyirsiniz, cəmiyyətdə ajeotaj yaradırsınız. Bunları görürdük, nəticənin bu şəkildə olacağını bilirdik. Xüsusilə də ailələrdə bir uşaqlılıq sisteminə keçid yaşanır. Yəni bir uşaqlı ailə modeli cırtan ailə modeli hesab olunur. Bir uşaqlı ailələrin sayı yüksək həddədir. İnsanlar dünyaya birdən artıq uşaq gətirmək, maddi-sosial problemlər içində çabalamaq istəmirlər. Bunun da səbəbi onların uşaqlarının təminatını həyata keçirə bilməməkdən narahat olmalarıdır. Ona görə də əksəriyyət ikinci uşağı dünyaya gətirməyi fikirləşmir".

### "…Ailələrə dəstək verilməlidir"

L.Mehralı abortla bağlı statistikaya da toxundu. Ekspert qeyd etdi ki, biz cəmiyyət olaraq uşaqların çox böyük hissəsinin ana bətnində abort yolu ilə öldürüldüyünün şahidi oluruq. L.Mehralı deyir ki, bütün abortlar leqal yollarla həyata keçirilmədiyi üçün bizim əlimizdə abortların sayı ilə bağlı dəqiq rəqəm yoxdur. Onun qeyd etdiyinə görə, evdə uşaq saldırmaları, dərman vasitələri ilə hamiləliklərin pozulmalarını nəzərə alsaq görərik ki, abortların sayı bizə təqdim edilən rəsmi statistikadakı rəqəmlərdən daha çoxdur. L.Mehralının sözlərinə görə, bizi ölkənin gələcək demoqrafik vəziyyəti düşündürməlidir və biz hansısa vasitələrlə ailələri uşaq dünyaya gətirməyə çağırmalıyıq: "Bu sahədə ciddi təşviqat işi həyata keçirmək, onlara maddi-sosial dəstək vermək olar ki, ailə sayını artırsınlar, demoqrafik vəziyyətimizə töhfə versinlər. İnsanlar arasında maarifçilik işləri aparılmalıdır ki, doğum faizi yüksəlsin. Bu öz yerində. Bir məsələni də vurğulamaq istəyirəm. Bir uşaqdan artıq övlad dünyaya gətirən ailəni nə gözləyir? Əsasən problemlər gözləyir. Sosial problemlərə, qidalanma, geyim, təhsillə bağlı gərək olanları əldə edə bilmədiklərinə, ləvazimatları almağa gücləri olmadıqlarına, uşaqlarını təmin edə bilmədiklərinə görə dünyaya uşaq gətirmək istəmir. Yoxsa heç bir valideyn istəməz ki, övladı bu dünyada tək, yalnız qalsın. Biz bu dünyanı tutub durmayacağıq. Valideyn olaraq nə vaxtsa dünyadan köçüb gedəcəyik.  Bizdə təşviqat alətləri yoxdur. Hansı tədbirlər görülür ki, bu insanlar dünyaya uşaq gətirsinlər? Bu məsələlər ciddi yanaşma tələb edir və bunu təkcə ailələrin üzərinə qoymaq da düzgün deyil. İnsanlara, ailələrə dəstək verilməlidir".

### "Dövlət, nəhayət ki, uşaq pulu məsələsinə bir əncam çəkməlidir"

L.Mehralı qeyd edir ki, pandemiya insanlara çox acı bir dərs verib və bu dövrdə işini itirib işsiz qalan ailə başçısı övladları qarşısında çox ağır imtahandan keçib. "Dövlət nəhayət ki, uşaq pulu məsələsinə bir əncam çəkməlidir. Müzakirələrin, çağırışların nəticəsi olmalıdır. Sayları az da olsa uşaq pulunun bərpa edilməsi məsələsində cəmiyyətə dəstək verən deputatlar da var. Onlar da zaman-zaman bu problemi Milli Məclisdə qaldırırlar. Amma yenə də qaranlıq qalan tərəflər və açıq qalan suallar var. Uşaq pulunu bərpa etməklə, digər dəstəkverici proqramlar həyata keçirməklə dövlət ailələri çox uşaqlılığa  təşviq etməlidir. Biz böyük, fantastik məbləğlərdən danışmırıq, hər ailənin köməyinə yetəcək və dövlət büdcəsini zərərə salmayan məbləğdən danışırıq. Bu məbləği ekspertlər öz aralarında müzakirə edərək müəyyən edə bilərlər. Tutaq ki, yeni doğulmuş yaşdan 3 yaşa qədər bir məbləğ, 3 yaşdan məktəbə qədər yaşa qədər bir məbləğ, 7 yaşdan 18 yaşa qədər fərqli məbləğ təyin oluna bilər…Hesab edirəm ki, bu məsələ həllini tapmalıdır, bu həllini taparsa vəziyyət müsbətə doğru dəyişə bilər"-deyə L.Mehralı vurğuladı.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**